

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 sentyabr 2022-ci il №75 (2686) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər

### Dövlətimizin başçısı və birinci xanım Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər

*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar.

Azərbaycan Prezidenti burada çıxış edib.




**Prezident İlham Əliyevin çıxışı**

- Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib, yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidlər biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beşaltı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12.00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

## Vətən müharibəsi şanlı tariximizdir

Tarixi günlərin də kövrəkliklə anılanı, həsrətlə gözləniləni olur. Torpaqlarımızın işğaldan azad ediləcəyi gün belə gözlənilib. O günün başlanğıcı oldu 2020-ci ilin 27 sentyabrı...

Hər şey həmin gün, tarixi əks-hücum əmrinin verilməsi ilə başladı. Ermənistanın növbəti hərbi təxribatına qarşı başlayan, 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Tarixi ədalət bərpa edildi. O Zəfər tarixi qələbəmizi şərtləndirdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa hər müraciətində haqqa, ədalətə söykənərək işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın bu ərazilərimizdə dalğalanacağını böyük inamla, əminliklə bildirirdi. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd etmişdi: "Biz başqa ölkələrin torpağına iddiaçı deyilik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik". İnanırdıq, Xalq olaraq inanırdıq... Bu inam 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında, 2020-ci ilin Tovuz, həmçinin avqust təxribatlarında təcavüzkara layiqli cavab verildikdə daha da gücləndi. Həmin gün - 27 sentyabrda əks-hücumun ilk həmləsindən rəşadətli ordumuz tərəfindən kəndlərimizin azad olunması bu inamı bir əminliyə çevirdi. Xalqımız "Dəmir yumruq" ətrafında, sözün həqiqi mənasında, yumruq kimi birləşdi. Müzəffər Ali Baş Komandan xalqa müraciətində dediyi "Bizim işimiz haqq işidir, biz qalib gələcəyik" kəlamı hər bir vətəndaşımızda qürur, fərəh hissi doğurmaqla ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.

Tarixi torpaqlarımızı işğaldan azad etmək uğrunda apardığımız bu müharibə tarixə İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi kimi həkk olundu.

Şanlı ordumuz 3 oktyabrda Suqovuşanı, 4 oktyabrda Cəbrayılı, 9 oktyabrda Hadrutu, 17 oktyabrda Füzulini, 20 oktyabrda Zəngilanı, 25 oktyabrda Qubadlını və nəhayət, 8 noyabrda Şuşa şəhərini işğaldan azad etdi. Ermənistanın ağ bayraq qaldırdı. Noyabrın 10-da Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2020-ci ilin 10 noyabr bəyanatına əsasən, 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda Laçın Azərbaycana qaytarıldı.

Şuşanın azad olunması Vətən müharibəsinin ən uğurlu, inanılmaz əməliyyatıdır. Bu döyüş İkinci Qarabağ müharibəsində həlledici məqam oldu. Hərbi cəhətdən Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi. Noyabrın 9-da rəşadətli Azərbaycan Ordusu 70-dən çox yaşayış məntəqəsini və bir neçə mühüm strateji əhəmiyyətli yüksəkliyi işğalçılardan azad etdi.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar



Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işləri 2021-ci ilin noyabr ayından başlayıb.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Yuxarı Gövhər Ağa məscidində konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universitetinin nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasına aparılır.

Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məsciddə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb.



Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir.

Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

# Vətən müharibəsi şanlı tariximizdir

(Əvvəli 1-ci səhifədə)

Noyabrın 8-də Şəhidlər xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan etdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa döyüşləri barədə bunları dedi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra edíblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

İkinci Qarabağ müharibəsində istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur. Azərbaycan Ordusunun Şuşa uğrundakı döyüşlərdə sıldırım qayaları dırmaşaraq düşməni yalın əl, bıçaq və yüngül atıcı silahlarla məğlub etməsi dünyanın ən məşhur hərbi institutları, ABŞ, Rusiya, Çin və s. dövlətlər tərəfindən araşdırılmaqla ətraflı şəkildə öyrənilməkdədir. Bütün bunlar Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun gücündən, özünəməxsus bacarıq və səriştəsindən xəbər verir.

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciət edərək şanlı Qələbəmizi elan etməsi o günlərdə həmrəylik nümayiş etdirən dünya azərbaycanlıları tərəfindən böyük coşqu, sevinc hissi ilə qarşılandı.

Xalqımızın ədalətli mübarizəsinin - Vətən müharibəsinin 44 gününün hər günü şanlı tarixdir. Azərbaycan Ordusu hər gün irəli gedərək yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edirdi. Rəşadətli Azərbaycan Ordusunun qüdrətinə müqavimət göstərə bilməyən düşmən dinc əhalini hədəfə almaqla müharibə cinayətləri törətdi. Şəhərlərimiz ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutuldu. Müharibə dövründə 100-ə yaxın mülki şəxs, o cümlədən uşaqlar, qadınlar həlak oldu. 400-dən çox mülki şəxs yaralandı, 5 mindən çox ev dağıdıldı. Ağdam, Bərdə, Füzuli, Gəncə, Goranboy, Naftalan, Mingəçevir və Tərtər rayonlarında şəhər və kəndlərin raket atəşinə tutulması müharibə cinayətidir. Müharibənin getdiyi o günlərdə münaqişə zonasında olmayan şəhər və rayonların atəşə məruz qalması, dinc sakinlərin həlak olması və yaralanması beynəlxalq ictimaiyyətə də çatdırıldı.

Dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş "Zəfər Paradı" təntənə ilə keçdi, təkcə ölkəmizdə deyil, dünyada da canlı olaraq izlənildi. Zəfər Paradı Böyük Vətən müharibəsində SSRİ-nin Almaniya üzərində qələbəsi şərəfinə Moskvada keçirilən tarixi hərbi paraddan sonra post-Sovet məkanında keçirilən ilk gedərək paradı kimi tarixə düşdü. Azərbaycan Ordusunun şəxsi heyətinin və hərbi texnikasının, habelə rəşadətli ordumuzun düşməndən qalan hərbi qənimətlərinin bir qismi bu paradda nümayiş etdirildi. Ən əsası isə bu paradın özünəməxsus özəlliyi, bir fərqliliyi vardır. Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi - "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" bu fikir öz təsdiqini tapdı. Gözlənilən o gün - "Zəfər Paradı"nda Şuşaya sancılmış Qələbə bayrağını Azadlıq meydanına Şuşanın azad edilməsində müstəsna xidmətləri olan, Qarabağ xanlığının, Şuşa qalasının əsasını qoyan Pənahəli xan Cavanşirin nəslindən olan və Şuşa azad olunandan sonra şəhərin ilk komendantı general-mayor Zaur Məmmədov gətirdi...

Dövlət başçısı öz məzmunlu çıxışında bildirdi ki, "Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi". Paradda Vətən müharibəsinin 44 gün müddətinə mənən yanımızda olan qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan çıxışında vurğuladı ki, Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman ulu öndər Heydər Əliyevin "İki dövlət bir millət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir.

Bu paradda ölkələrimiz arasındakı qardaşlığın bariz nümunəsi kimi, Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərlər iştirak etdilər.

Bu müharibə bir daha dünya azərbaycanlılarının birliyinin təsdiqi oldu. O günlərdə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə, Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı ayağa qalxdılar. Müharibənin getdiyi günlərdə xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Vətəndaşlarımız etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirərək ön və arxa cəbhədə mükəmməl birlik yaratdılar. Arxa cəbhədə olan vətəndaşlar vuruşan orduya kütləvi yardım kampaniyaları keçirir, qanvermə aksiyaları təşkil edir, həmçinin müxtəlif formalarla mənəvi dəstək olurdular.

Dövlətimiz şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Birinci vitse-prezident Mehriban Əliyeva şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir.

Prezident İlham Əliyevin sərəncamları ilə 27 sentyabr - Anım Günü və 8 noyabr - Zəfər günü kimi tariximizə daxil oldu.

Dövlətimiz "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Zəfər" və "Qarabağ" ordenləri, "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və digər medallar təsis etdi. Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi müxtəlif orden, medal və fəxri adla təltif edildi.

Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları və mənfi düşüncələri darmadağın etdi. Ermənistanın və onun havadarlarının planları alt-üst oldu.

Ölkəmizdə müharibədən dərhal sonra "Böyük Qayıdış" proqramının icrasına başlanılaraq kompleks tədbirlər həyata keçirilir, müasir texnologiyaların potensialından geniş istifadə edilməklə çoxşaxəli və müxtəlif təyinatlı logistik layihələr uğurla icra olunur. Müasir texnologiyalar əsasında yenidən qurulması istiqamətində ilk pilot layihənin icrasına Zəngilan rayonunun Ağalı kəndində start verildi. Mayın 27-də isə artıq "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi oldu və sakinlər öz doğma yurdlarına köçürüldülər.

İkinci Qarabağ müharibəsi qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük Zəfərlə başa çatdı. Azərbaycan Qələbə qazandı, tarixi ədalət bərpa olundu. İşğaldan qurtuluşu sonlandıran Zəfərin başlanğıcı 27 sentyabrdı. Bu tarix Azərbaycan Ordusunun qüdrətini tarixləşdirən qələbənin ilkidir...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı və İkinci Şəhidlər xiyabanını ziyarət edib







*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 27-də Vətən müharibəsinin ikinci ildönümü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Fəxri xiyabanı və İkinci Şəhidlər xiyabanını ziyarət edib.*





Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi İkinci Şəhidlər xiyabanını ziyarət edib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub, məzarları ziyarət edilərək üzərlərinə gül dəstələri düzülüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti şəhidlərin ailə üzvləri və yaxınları ilə görüşərək onların qayğıları ilə maraqlanıb.

# Müdafiə naziri: "Azərbaycan Ordusunun qətiyyətli cavab tədbirləri Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilib"

Sentyabrın 24-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Nazir 12-14 sentyabr 2022-ci il tarixlərində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirlərinin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Bildirilib ki, müxtəlif qoşun növü bölmələrinin gecə saatlarında eyni anda bir neçə istiqamətdə çətin relyefli, dağlıq ərazidə qarşılıqlı əlaqədə həyata keçirdiyi uğurlu cavab tədbirləri Azərbaycan Ordusunun hərb elminə gətirdiyi növbəti yenilik oldu. Bu döyüşlər dünyanın aparıcı hərbi mütəxəssisləri tərəfindən araşdırılacaq və təhlil ediləcək.

Müşavirədə Kəlbəcər və Laçın rayonları istiqamətində, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə hazırkı əməliyyat şəraiti təhlil edilib.

Nazir şəxsi heyətin sayıqlığının artırılması və Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək istənilən təxribatın qarşısının bundan sonra da dərhal və qətiyyətlə alınması barədə konkret tapşırıqlar verib.

General-polkovnik Zakir Həsənov bölmələrdə qışa hazırlıq işlərinin plana əsasən yekunlaşdırılması, xüsusilə dağlıq ərazilərdə dislokasiya olunan bölmələrə lazımi ehtiyatların çatdırılması barədə aidiyyəti şəxslərə müvafiq göstərişlər verib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən bölmələrimizin yeni yerləşmə məntəqələrində xidməti-döyüş fəaliyyətinin təşkili ilə bağlı digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin qısa müddət ərzində başa çatdırılmasının vacibliyini diqqətə çatdırıb.

Nazir qoşunlarda xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılmasında mühüm rol oynadığını vurğulayıb.

Sonra general-polkovnik Zakir Həsənov şəhid ailələri və döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların daim diqqət mərkəzində saxlanılması və onların qayğılarına xüsusi həssaslıqla yanaşılması barədə müvafiq göstərişlər verib.

Müşavirənin sonunda qoşun xidmətinin, ideoloji işin təşkili, şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin, tibbi təminatının daha da yaxşılaşdırılması, həmçinin azad edilmiş ərazilərdə mühəndis tədbirlərinin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan və Türkiyə müdafiə nazirlərinin telefon danışığı olub

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar arasında telefon danışığı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik Zakir Həsənov həmkarını Ermənistan silahlı birləşmələrinin son təxribatlarına qarşı ordumuz tərəfindən görülən qətiyyətli tədbirlərdən sonra yaranmış əməliyyat şəraiti, eləcə də ordu quruculuğu sahəsində aparılan işlər barədə ətraflı məlumatlandırıb.

Hulusi Akar Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanı dəstəklədiyini və daim yanında olduğunu xüsusi qeyd edib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Gürcüstanda rəsmi səfərdədir

Sentyabrın 28-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Gürcüstana rəsmi səfəri başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində keçiriləcək görüşlərdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, habelə regional təhlükəsizlik məsələlərinin müzakirə olunması planlaşdırılır.

# Türkiyə Milli Müdafiə Nazirliyi: Qəhrəman şəhidlərimizi minnətdarlıqla və ehtiramla anırıq

Türkiyənin Milli Müdafiə Nazirliyi 27 Sentyabr - Anım Günü ilə əlaqədar rəsmi tviter hesabında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Qəhrəman Azərbaycan Ordusunun iki il əvvəl Qarabağda işğal altındakı torpaqlarını azad etmək üçün başladığı və 44 gündə Zəfərlə nəticələnən mübarizəsinin ildönümündə qəhrəman şəhidlərimizi rəhmət, minnətdarlıq və ehtiramla anırıq".

Paylaşım "Bir millət, iki dövlət!" (İkiDevletTekMillet) həştəqi ilə edilib.

# Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, sentyabrın 27-də Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib. Plana uyğun olaraq hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edib, şəhidlərimizin məzarları üzərinə gül dəstələri düzərək xatirələrini ehtiramla yad ediblər.*



Tədbirlər çərçivəsində hərbi qulluqçular üçün Vətən müharibəsinə həsr olunan sənədli filmlər, videoçarxlar nümayiş etdirilib.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı şanlı qələbənin tarixi əhəmiyyətindən, xalqımızın qələbədəki rolundan, döyüş iştirakçılarının igidlik və qəhrəmanlıq nümunələrindən, eləcə də şəhidlərimizin əziz xatirələrindən danışılıb.

Anım Günündə, həmçinin şəhid ailələri və döyüşlərdə sağlamlıqlarını itirən hərbçilərimiz ziyarət edilib.

Anım tədbirlərində Müdafiə Nazirliyinin zabitləri, kursantlar, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, müharibə veteranları, orta məktəblərin şagird və müəllim kollektivləri iştirak ediblər.

* * *

İkinci Qarabağ müharibəsi Müzəffər Ali Baş Komandanın rəhbərliyi, rəşadətli ordumuzun sonsuz əməyi, gücü hesabına Zəfərlə başa çatdı. Qələbəylə sonlanan 44 günlük Vətən müharibəsində döyüşərək qəhrəmancasına şəhid olanların xatirəsi hər zaman uca tutulur.

Heydər Əliyev adına Hərbi İnstitutda da "Şəhidlər ölməz - Vətən bölünməz!" adlı tədbir keçirildi.

Çıxış edən Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov ordumuzun qazandığı parlaq qələbədən söz açaraq kursantların və zalda iştirak edən digər qonaqların diqqətinə çatdırdı ki, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti nəticəsində 30 ilə yaxın düşmən işğalında qalmış torpaqlarımız azad edildi. "Ali Baş Komandan döyüş əmrini verdiyi zaman xalq bir yumruq kimi onun ətrafında birləşdi. Xalqın rəhbərinə, rəhbərin də xalqına olan inamı qələbənin gəlişini sürətləndirdi. Müharibə dövründə xalqımız arasında yeni ənənə formalaşmışdı. Kiçikdən-böyüyə hər kəs televizorun, radionun yanından çəkilmir, sosial şəbəkələrdə paylaşılacaq məlumatları dörd gözlə izləyirdilər. Bilirdilər ki, Prezidentin hər yeni çıxışı azad olunan torpaqlarımızın müjdəsindən xəbər verirdi. Təbii ki, müharibə itkisiz keçmir. Sevindirici xəbərlərlə yanaşı, aldığımız şəhid xəbərləri bizi kədərləndirirdi. Bu gün qazandığımız qələbənin əsas pay sahibləri xatirələrini ehtiramla yad etdiyimiz şəhidlərimizdi. İndi Azərbaycan dünyada qalib dövlət kimi sözünü deməyi bacarırsa, bunu Ali Baş Komandanın uğurlu siyasətinə, sərkərdəlik qabiliyyətinə, şəhidlərimizə, qazilərimizə, Vətən müharibəsi iştirakçılarına borcluyuq".



**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Vətən müharibəsinin başlanmasının




ikinci ildönümü - 27 sentyabr Anım Günü ilə bağlı tədbir keçirildi.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının baş direktoru professor Məmməd Əliyev çıxış edərək həm Birinci Qarabağ müharibəsində, Tovuz hadisələrində və həm də 44 günlük Vətən müharibəsində xalqımızın qəhrəman övladlarının düşmənlə mübarizədə göstərdikləri fədakarlıq nümunələrindən geniş söhbət açdı. Baş direktor Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 gün ərzində tarixi torpaqlarımızdan erməni işğalçılarını necə igidliklə, mərdliklə qovaraq torpaqlarımızı düşmən işğalından azad etməsindən, bu gün azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq, yenidənqurma işlərindən, Mərkəzi Elmi Kitabxanada iki il öncə yaradılan Qarabağ Fondunun fəaliyyətindən və burada arxivləşdirilən zəngin ədəbiyyat nümunələrindən ətraflı danışdı. Professor onu da qeyd etdi ki, Qarabağ Fondunu ziyarətə gələn xarici qonaqlar oraya daxil olan Qarabağımızın zəngin mədəniyyətini, tarixini əks etdirən kitablarla tanış olur və mütəmadi olaraq şəhid ailələri və müharibə iştirakçıları ilə kitabxanada görüşlər keçirirlər.

Daha sonra tədbirdə geniş məruzə ilə çıxış edən A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Mais Əmrahov ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən, zaman-zaman erməni daşnaklarının xalqımıza başına gətirdiyi faciələrdən, Dağlıq Qarabağ hadisələrinin başlanmasından, Vətən müharibəsində dövlət başçımızın müdrik, uzaqgörən siyasətindən, diplomatik bacarığından, qətiyyətli addımlarından söhbət açdı. Bu gün işğaldan azad olunmuş torpaqlarda üçrəngli bayrağımızın yüksəkliklərdə dalğalanmasına şəhidlərimizin, qazilərimizin canı, qanı bahasına nail olunduğunu dedi.

Vətən müharibəsi şəhidi Nicat Tanrıverdiyevin anası Şükran Farukqızı, Aprel döyüşləri və Vətən müharibəsi iştirakçısı ehtiyatda olan polkovnik-leytenant Bəxtiyar Təşəroğlu əminliklə bildirdilər ki, illər, əsrlər keçsə də, qədirbilən Azərbaycan xalqı öz şəhid övladlarını qoynunda əbədi uyudaraq, onların adlarını uca tutacaq, xatirələrini qəlblərdə yaşadacaqdır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



Azəbaycan Hərb Tarixi Muzeyinin açıq səma altında ekspozisiyasında Vətən müharibəsinin başlamasının 2-ci ildönümünə həsr olunmuş "Vətəni yaşadanları biz yaşadaq" adlı anım tədbiri keçirildi.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Vətəni yaşadanları biz yaşadaq" adlı məruzə ilə tədbiri açaraq bildirdi ki, iki il öncə 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. "Silahlı Qüvvələrimiz hər bir kənd, qəsəbə, şəhər, yüksəkliyin düşməndən təmizlənməsi uğrunda rəşadətlə mübarizə apardı, böyük tarixi nailiyyətə imza atdı.

Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, rəşadətli ordumuzun cəsurluğu, qəhrəmanlığı nəticəsində zəfərlə başa çatdı. Bu tarixi Qələbə əbədiyaşar şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazanıldı və Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazıldı".

Muzey rəisi qeyd etdi ki, Vətən müharibəsində şanlı qələbəmiz asanlıqla əldə olunmayıb. "Torpaqlarımızı geri qaytarmaq fikrində olmayan məkrli düşmən onilliklər ərzində burada güclü istehkamlar qurmuşdu. İşğalçılar elə düşünürdülər ki, Azərbaycan Ordusu bu istehkamları heç vaxt keçə bilməyəcək. Ermənistanın hərbi birləşmələri işğal etdikləri ərazilərimizdə yerləşən yüksəkliklərdə mövqelənmişdilər. Lakin Azərbaycan Ordusu 44 gün ərzində o güclü istehkamları da, mövqeləri də darmadağın edərək düşməni diz çökdürməyi bacardı. Ermənistan silahlı qüvvələri canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən kənarda yerləşən şəhər və rayonlardakı yaşayış məntəqələrini, mülki insanları hədəf alaraq müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər törətmişdi...".

Vətən müharibəsi haqqında geniş məlumat verən muzey rəisi çıxışını qalib ordunun sərkərdəsi Ali Baş Komandan İlham Əliyevin "Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən ediləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü və milli ləyaqətimizi bərpa etdik" kəlamları ilə yekunlaşdırdı.

Tədbirdə özü və iki oğlu Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan mayor Sahib Əsgərov, 53 saylı orta məktəbin tarix müəllimi Yeganə Aslanova və digərləri də çıxış edərək Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı qələbədən, bu zəfərin tarixi əhəmiyyətindən, xalqımızın qələbədəki rolundan, qəhrəman oğullarımızın ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə göstərdikləri qorxmazlıqdan, şücaətdən danışdılar.



**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunan “Şəhidlər ölməz - Vətən bölünməz!” adlı anım mərasimləri keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Heydər Əliyev adına Hərbi İnstitutda və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə 2022-ci ilin sentyabrında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ruhlarının daim uca tutulması məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" adlı anım tədbirləri keçirilib.

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələrinin, şəhidlərin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbənin əhəmiyyətindən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq və şücaətindən, eləcə də 12-14 sentyabr 2022-ci il tarixində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına qarşı bölmələrimiz tərəfindən görülən qətiyyətli cavab tədbirlərindən danışıblar.



Sonra Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbəyə və şəhidlərimizin şərəfli döyüş yoluna həsr olunan videoçarxlar nümayiş olunub.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti və xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları qəhrəmanlığı, vətənpərvərliyi, igidliyi tərənnüm edən bədii kompozisiyalar təqdim ediblər.

## Vətən Müharibəsi Qəhrəmanlarımız

# “Öncə Vətən, sonra ana!” - deyən şəhidimiz

*Pedaqoji fəaliyyətə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışam. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu liseydə ilk dərsim 1 sentyabr 2002-ci il tarixində olub. Sinfə daxil olanda məni gülərüzlü, eyni zamanda, yaşlarına müxalif olan ciddi simalı kursantlar qarşılamışdılar. Onların içərisində Ceyhun Həsənov da var idi. O, manqa komandiri kimi mənə raport verib, dərsə hazır olduqlarını bəyan etdi. Elə o an başa düşdüm ki, Ceyhun komandir olmaq üçün doğulanlardandır.*

İki tədris ili ərzində (Mən onlara II kursda müəllim təyin olunmuşdum) əksər kursantlarla aramızda müəllim-şagird münasibətindən daha çox, dost, böyük-kiçik qardaş münasibəti yaranmışdı. Axı onlar ilə aramda cəmi 5-6 yaş fərq var idi. Mütəmadi təşkil olunan hərbi vətənpərvərlik tədbirləri, fənn gecələri çoxda böyük olmayan yaş fərqini daha da azaldır, azaltdıqca doğmalaşdırırdı. Lisey divarları arasında hər şənbə "Kursant səhəri" radiosunda "Naxçıvanskinin səsi" divar qəzetində gənc müdavimlər vətənpərvər mövzuda şeirlər, məqalələrlə çıxış edirdilər. Çalışırdıq ki, kursantları gələcəyin komandirləri kimi tərbiyə edək. Onların hər biri ictimai işlərdə fəal iştirak edir, maraqlı təkliflərlə çıxış edirdilər. Kursantların içərisində Ceyhun Həsənov xüsusi seçilirdi. Gözəl natiqlik qabiliyyəti olduğundan hər tədbirdə aparıcı olur, şeir oxuyur, səhnəciklərdə baş rolda iştirak edirdi. Ceyhun həm də liseydə fəaliyyət göstərən “Gənc natiqlər” dərnəyinin də üzvü idi. Yaxşı yadımdadır, böyük türk ədəbi və mütəfəkkiri Namik Kamalın həyat və yaradıcılığına həsr etdiyimiz ədəbiyyat gecəsində o, böyük vətənpərvər şairin obrazını canlandırmışdı. Bu uğuru sonralar qələmə aldığım və ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyim "Həmişəyaşar məhəbbət" adlı bir pərdəli dram əsərində baş qəhrəmanı canlandırmaq üçün seçim edərkən onun üzərində dayanmağıma səbəb oldu. Ceyhun da ona tapşırılan bu məsuliyyətli işin öhdəsindən müvəffəqiyyətlə gəldi.



O, əslən Tovuzdan idi. Azərbaycanın bu dilbər guşəsindən olub, ədəbiyyata, şeirə, sənətə həvəs göstərməmək mümkün deyil. Liseydə kursantlar arasında təşkil olunan hərbi vətənpərvərlik mövzusunda inşa və bədii qiraət müsabiqələrində də Ceyhun həmişə qaliblər sırasında olurdu. Müəlliminin başını həmkarları arasında uca edirdi. Onun lətif nitqinə hər şeir uyuşur, Nizami, Füzuli əsərləri Ceyhunun ifasında daha gözəl səslənir, Səməd Vurğun, Bəxtiyar Vahabzadə Ceyhunun dili ilə daha inamla, daha qətiyyətli danışırdı.

O, eyni zamanda, dərslərini də yaxşı oxuyurdu. İdmanla məşğul olan Ceyhun liseyi bitirəndə boylu-buxunlu, enlikürək gənc olmuşdu. Güləş yarışlarında təmsil etdiyi liseyin komandasına dəfələrlə fəxri fərman, kubok və medal gətirmişdi. Əlamətdar günlərdə sıra toplantılarında, hərbi keçidlərdə liseyin bayrağını daşıyan üçlükdə Ceyhun daim yer alırdı, avtomatı sinəsinə sıxıb, üçrəngli bayrağa qürurla baxaraq mətn addımlarla irəliləyirdi.

Hamı Ceyhunu sevir, onunla fəxr edirdi. O, dostlarının da istəklisi idi. Artıq danışmaz, yersiz zarafat etməz, boş vaxtlarında mütaliə edərdi.

Ceyhun heç zaman nailiyyətləri ilə qürrələnməzdi, əksinə, müəllimləri və komandirləri onu tərif edəndə yanaqları qızarar, başını aşağı salardı.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirəndən sonra uzun müddət onu görməmişdim. Ali məktəbi "Motoatıcı" ixtisası üzrə bitirən Ceyhun Naxçıvanda, Beyləqanda xidmət etmişdi. Eşitmişdim ki, kapitan rütbəsinə qədər yüksəlib, uğurlu xidmət tarixçəsi var, şəxsi heyət də, komandirləri də onu sevir, ona hörmət edirlər.

27 sentyabr 2020-ci il tarixində kapitan Ceyhun Həsənovun Füzuli döyüşləri zamanı şəhadət şərbətini içdiyi xəbərini aldım. Televiziya ekranında onun nurlu şəklini görəndə sarsıldım. Hər zaman birincilər sırasında olan Ceyhun Vətən müharibəsi şəhidləri arasında da birincilərdən oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Ceyhun Həsənovun ölümündən sonra Qarabağımızın düşmən tapdağından azad edilməsi uğrunda aparılan döyüş əməliyyatları zamanı şəxsi igidliyinə və şücaət nümayiş etdirdiyinə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülməsi, "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildiyi xəbərlərini aldıqca bu Vətən oğlunu tanıdığım üçün qürur duyur, hər dəfə daha çox fərəhlənirdim. Gözümün önündə Ceyhunun: "Müəllim, yenə medalla təltif olundum", "Yenə birinci yerə çıxdım", - deyərək auditoriyaya daxil olduğu günləri xatırlayırdım.

Onun haqqında mətbuatda, sosial şəbəkələrdə çox yazılır, televiziya ekranlarında çox danışılır. Lakin bunlar Ceyhunu anlatmağa yetmir. Onun içi bir dərya, çölü bir əzəmətli qaya kimi idi. Nə qədər sərt idisə, bir o qədər həssas idi Ceyhun.

Ceyhunun həyatının böyük bir hissəsi Bakı şəhərinin Xətai rayonu ilə bağlıdır. O, bu rayonun ərazisində yaşayıb, boya-başa çatıb, orta məktəbə gedib, hərbi liseydə oxuyub. Bu xatirələrin əbədiləşdirilməsi üçün artıq bir sıra mühüm addımlar atılıb. 29 iyul 2021-ci il tarixində Xətai rayonu ərazisində möhtəşəm xatirə lövhəsi ucaldılıb. 1 noyabr 2021-ci il tarixində Bakı şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı ilə Sadıqcan küçəsinə, 4 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fərmanı ilə Bakı şəhəri Xətai rayonu 48 saylı tam orta məktəbə onun adı verilib.



İndi "Vətən Müharibəsi Qəhrəmanı" kapitan Ceyhun Həsənovdan bizə iki əkiz oğul övladı - Cahid və Cavidan yadigar qalıblar. Onun atası, anası, həyat yoldaşı bu gün bizə, dövlətimizə, xalqımıza əmanətdirlər. Çünki Ceyhun həmişə: "Öncə Vətən, sonra ana!" - deyərdi.

Bu günlərdə İctimai Televiziya Ceyhun haqqında sənədli film çəkilişləri edirdi. Mən də Ceyhunun müəllimi kimi atası Aydın müəllim tərəfindən çəkilişdə iştirak etmək üçün dəvət olunmuşdum. O zaman balaca Cahid və Cavidanın əlində üçrəngli bayraq, "Azərbaycan" deyərək atalarının abidəsinə doğru qaçdıqlarını görəndə ürəyim fərəhlə doldu. Anladım ki, nə qədər qəlbində Vətən eşqi olanlar var, bu elin-obanın igidləri tükənməyəcək.

Mənim bu həyatda çox nailiyyətlərim olub. Onlarda mənim müəllimlərimin, valideynlərimin, ustadlarımın rolu böyükdür. Lakin vaxtilə hərbi liseydə dərs dediyim Ceyhun kimi kursantlarım mənə bir şərəfli ad da qazandırıblar: "Vətən Müharibəsi Qəhrəmanı"nın müəllimi. Ceyhun, buna görə sənin ruhun qarşısında baş əyir, səni dünyaya gətirən, tərbiyə edən ata-ananın əllərindən öpürəm. Sənin xatirən mənim qəlbimdə əbədi yaşayacaq, çöhrən gözümün önündən heç zaman getməyəcək, səsin hər zaman qulaqlarımda səslənəcəkdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Ruhun şad olsun, öpüb and içdiyin o üçrəngli bayrağın kölgəsində rahat uyu. Qarabağ azaddır, bunda sənin də payın var. Sən öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirə bildin. Şəhidlər ölmür, sən də əbədi yaşayacaqsan.

**Əzizağa NƏCƏFZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Növbəti "Komando başlanğıc kursu" başa çatıb





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2022-ci ilin hazırlıq planına əsasən, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Buraxılış mərasimində çıxış edən general-mayor Vasif Kazımov şəxsi heyətə Müdafiə Nazirliyinin rəhbər heyətinin təbriklərini çatdıraraq, hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb.

Kursu bitirən hərbi qulluqçulara sertifikat və beretlər təqdim olunub.

Sonda şəxsi heyət tribuna önündən təntənəli keçid edib.

# Anım Günü münasibətilə ağacəkmə aksiyası keçirilib



Vətən müharibəsinin ikinci ildönümü ərəfəsində şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-də Anım Günü ilə əlaqədar Müdafiə Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hər iki nazirliyin və Abşeron rayon İcra Hakimiyyətinin nümayəndələri, ANAMA əməkdaşları, şəhid ailələri və müharibədə sağlamlıqlarını itirən vətəndaşlarımızın iştirakı ilə keçirilən tədbirdə 1000-dən artıq Eldar şamı və zeytun ağacı əkilib.



Şəhidlərimizin əziz xatirəsi digər bölgələrimizdə də ağacəkmə tədbirləri ilə anılıb.

# "Türkiyə-Azərbaycan qardaşlığı yeni layihələrlə daha da yüksək zirvələrə çıxacaq"

"Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində əldə etdiyi Zəfərin ikinci ildönümü münasibətilə Şuşanı ziyarət etdik. Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən toplantıda çıxışımız da oldu. Zəfərdən sonra Şuşada çox böyük bərpa-yenidənqurma işləri aparılır. Orada yollar inşa edilir, tarixi abidələr bərpa olunur, yeni, Şuşada insanların yenidən həyata qayıtması üçün böyük işlər görülür".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım ifadə edib.

Azərbaycanın tarixi Qarabağ bölgəsində 30 ilə yaxın davam edən işğala, əsirliyə son qoyulduğunu vurğulayan Binəli Yıldırım bildirib: "Qarabağ Azərbaycanın əbədi torpağıdır, bundan sonra da belə olacaq. Türkiyə-Azərbaycan qardaşlığı iqtisadiyyat, mədəniyyət, idman, ümumiyyətlə, bütün sahələrdə yeni layihələrlə, birgə işlərlə daha da yüksək zirvələrə çıxacaq. Bu layihələr çərçivəsində elm adamlarımızın birgə fəaliyyəti də nəzərdə tutulur".

# "ƏİK Məlumat Bazası" kursunun açılış mərasimi olub





Sentyabrın 27-də NATO-nun ölkəmizdə keçirilən "Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Məlumat Bazası" kursunun (OCC E&F Database Training Course) açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, açılış mərasimində Anım Günü ilə əlaqədar olaraq torpaqlarımızın bütövlüyü və müstəqilliyimiz uğrunda canını qurban verən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Sonra kursda iştirak edən heyətlərə kursun məqsədi, şərtləri və icra olunacaq tapşırıqlar barədə brifinq təqdim olunub.

Qeyd edək ki, ölkəmizdə təşkil olunan "Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Məlumat Bazası" kursu (OCC E&F Database Training Course) sentyabrın 30-na kimi davam edəcək.

## Laçın istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Laçın rayonu istiqamətində Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "UL-350" tipli pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə yerə endirilib.



# Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi Poltovada yad edilib



Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində Sovet İttifaqı Qəhrəmanı, Qubadlı rayonunda ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, anım tədbirində Azərbaycanın Ukraynadakı müvəqqəti işlər vəkili Sabir Rzayev, Azərbaycanın Ukraynadakı hərbi attaşesi, 1-ci dərəcəli kapitan Əziz Nuriyev, hərbi attaşenin baş köməkçisi polkovnik Samir Əfəndiyev, səfirliyin üçüncü katibi Şamxal İsrafilzadə, Oleq Babakın valideynləri iştirak ediblər.

Azərbaycan nümayəndə heyəti əvvəlcə O.Babakın yaşadığı evə gələrək onun valideynlərinə baş çəkib. Müvəqqəti işlər vəkili Sabir Rzayev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlətimiz daima Oleq Babakın ailəsinə öz qayğısını göstərir. "Bura gəlməyimizin məqsədi bir daha Azərbaycan dövlətinin dəstəyini, yardımını sizə çatdırmaqdır. Artıq Oleq Babakın ruhu da şaddır, çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz işğalda olan torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır", - deyə Sabir Rzayev əlavə edib.

O.Babakın valideynləri Azərbaycan dövlətinin onların problemləri ilə həmişə yaxından maraqlandığını vurğulayıblar. Qeyd ediblər ki, Oleq Babakın xatirəsi həmişə Azərbaycan xalqı tərəfindən əziz tutulur, yad edilir.





Sonra tədbir iştirakçıları O.Babakın dəfn olduğu qəbiristanlığa gəliblər, onun qəbri üstünə tər çiçəklər düzüblər.

Qeyd edək ki, O.Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətində anadan olub. SSRİ-nin xüsusi təyinatlı 21-ci briqadasının siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan O.Babak 1991-ci ilin mart ayından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib. 1991-ci il aprelin 7-də Qubadlının Yuxarı Cibikli kəndində yerli sakinlərin ermənilər tərəfindən öldürülməsi xəbəri yayılandan sonra mülki şəxsləri qoruyub.

SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

## "Vətən müharibəsində ordumuzun gücünə böyük inam vardı"

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ordu-xalq birliyini göstərdi. Xalqımız bir amal - torpaqlarımızı düşməndən azad etmək uğrunda yumruq kimi birləşdi və ordumuza tam gücünü, dəstəyini əsirgəmədi. Otuz il düşmən tapdağında olan torpaqlarımızın azad olunmasında ordumuzun gücünə böyük inam var idi.

Bunu AZƏRTAC-a müsahibəsində Müdafiə Nazirliyinin mayoru Rail Ağayev deyib.

Qeyd edib ki, ordumuz xalqımızın inamını, etimadını doğruldaraq üzərinə düşən tapşırığı layiqincə və yüksək səviyyədə yerinə yetirdi.

Döyüş yolu haqqında danışan R.Ağayev bildirib: "Vətən müharibəsi başlanan zaman əvvəlcə Füzuli, sonra Cəbrayıl və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə iştirak etdim. Belə bir atalar misalı var - "Su yatar, düşmən yatmaz". Nə qədər ki, mənfur düşmən qonşumuzdur, həmişə güclü orduya malik olmalıyıq. Düşmənin sonuncu - sentyabrın 12-də törətdiyi təxribat bunu bir daha göstərdi. Şahid olduq ki, Azərbaycan Ordusu daim düşmən təxribatının qarşısını almağa qadirdir".

İyirmi ildən çoxdur ki, Azərbaycan Ordusunda xidmət etdiyini deyən Rail Ağayev Vətən müharibəsində ən yaddaqalan döyüşünün Qubadlı uğrunda olduğunu xatırladıb.

## Həmkarlar Təşkilatı hospitalda müalicə alan yaralılara baş çəkib

*İkinci Qarabağ müharibəsi mahiyyəti etibarilə torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi. Azərbaycan Respublikasının, Rusiya Federasiyasının prezidentləri və Ermənistanın Baş naziri üçtərəfli Bəyanat imzaladılar. Bu Bəyanat Azərbaycan Ordusunun qalibiyyət, Ermənistan Ordusunun məğlubiyyət sənədi idi. Bu Bəyanatın şərtlərinə əməl etməyən Ermənistan Azərbaycana qarşı hərbi təxribatlar törətməyə davam edirdi.*



Sentyabrın 12-14-ü tarixlərində də Kəlbəcər, Laçın və Daşkəsən istiqamətlərindən düşmən növbəti təxribata əl atdı. Lakin ordumuzun bölmələri yenə də təxribatın qarşısını qətiyyətlə alaraq, düşmənə dərsini verdi. Bu döyüşlər də Azərbaycan Ordusunun döyüş əzminin, qələbə ruhunun döyüşləri kimi tarixləşdi. Düşmən ağır itkilərə məruz qaldı, onlarla döyüş texnikası, dayaq məntəqəsi, hərbi hissəsi məhv edildi. Yüzlərlə hərbi qulluqçusunu itirən düşmən geri çəkilməyə məcbur oldu...

Döyüşlərdə ordumuzun yaralanmış hərbi qulluqçuları hospitallarda müalicə olunurlar. Dövlət başçısı, Müdafiə Nazirliyinin rəhbərliyi, ictimaiyyət onların müalicəsini böyük həssaslıqla diqqətdə saxlayır. Ayrı-ayrı dövlət və ictimai təşkilatların nümayəndələri onlara baş çəkir, tez sağalmalarını arzulayırlar.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar Təşkilatının nümayəndələri sentyabr döyüşlərində yaralanmış hərbi qulluqçulara baş çəkib. Yaralılarla söhbət zamanı təşkilatın sədri Zakir Mövsümov bunu mənəvi borcödəmə adlandırıb.

- Siz düşmənin növbəti təxribatının qarşısını alanda yaralanmısınız. Mərdlik döyüşündə yara alanların hamısı hamımızın əzizidir. Siz də əminsiniz ki, üçtərəfli Bəyanata əməl etməyən məğlub Ermənistan qalib Azərbaycanın ərazilərində təxribat xarakterli addımlar atmaqla, heç nəyə nail ola bilməyəcək. Ermənistan unudur ki, cəsarət edib Azərbaycana qarşı təxribata meyillənsə, qüdrətli Azərbaycan Ordusu qarşısını bundan sonra daha da qətiyyətlə alacaq. Ermənistan silahlı qüvvələrinin təxribatı sentyabr döyüşlərində də dəf edildi. Əks-hücumla geri çəkilən düşmən xeyli hərbi itkiyə məruz qaldı. Siz qətiyyətlə döyüşdünüz. Döyüşünüzlə təsdiqlədiniz ki, Azərbaycan Ordusu ərazilərimizi qorumağa qadirdir, - təşkilatın sədri Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında yaralılara belə deyib.

Yaralılar bu gəlişi könül xoşluğu ilə qarşılayıblar.

Təşkilatın sədri hospitalın rəhbərliyinə minnətdarlığını bildirib, yaralılara müalicə olunaraq Vətənə hərbi xidmətlərini davam etdirmələrini arzulayıb.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə axtarışda olan daha bir terrorçu zərərsizləşdirilib



Türkiyənin təhlükəsizlik qüvvələrinə qarşı Hatay vilayətinin Amanos və Van bölgələrində fəaliyyət göstərdiyinə görə ittiham edilən Akyol soyadlı terrorçu zərərsizləşdirilib.

Anadolu Agentliyi xəbər verir ki, PKK-nın terror düşərgələrində fəaliyyət göstərib təlimlər keçən Akyol PKK-YPG terror təşkilatlarının fəal üzvü olub. Əvvəlcə İraqın şimalındakı Qəndildə yerləşən düşərgələrində olan Akyol burada PKK-nın aparıcı simalarından olan Cəmil Bayıkın rəhbərliyi ilə keçirilən təlimlərə qatılıb, burada təhlükəsizlik qüvvələrinin terrorçulara qarşı planladıqları antiterror əməliyyatlarını pozmaq üçün kurslarda iştirak edib.

Terrorçu Türkiyənin Milli Təhlükəsizlik Təşkilatı (MİT) tərəfindən təqib edilib və xüsusi antiterror əməliyyatı nəticəsində zərərsizləşdirilib.

## İran silahlı qüvvələri İraqın şimalını artilleriya atəşinə tutub



Sentyabrın 25-i səhər saatlarında İran silahlı qüvvələrinin quru qoşunları İraqın şimal regionlarını artilleriya atəşinə tutub.

İran İslam İnqilabı Keşikçiləri Korpusunun (Sepah) məlumatına əsasən, İraqın şimalında cəmləşən terrorçu qruplaşmaların mövqeləri və qərargahları bombardman edilib.

Artilleriya atəşinin nəticələri barədə hələlik məlumat verilmir. İranın rəsmi mediası bildirir ki, bu barədə Sepahın bəyanatla çıxış edəcəyi gözlənilir.

## Cənubi Koreya və ABŞ hərbçiləri birgə təlimlərə başlayıb



Cənubi Koreya və ABŞ hərbçiləri Şərq (Yapon) dənizində son 5 ilin ilk birgə hərbi dəniz təlimlərinə başlayıb.

Şimali Koreyanın növbəti ballistik raket sınağından bir gün sonra başlayan təlimlərə hər iki tərəfdən xeyli sayda canlı qüvvə, 20 hərbi gəmi, o cümlədən ABŞ-ın nüvə başlıqlı raketlərə malik "Ronald Reyqan" təyyarədaşıyan gəmisi və "USS Annapolis" sualtı qayığı, müxtəlif növ hərbi təyyarə və helikopterlər cəlb olunub. Cənubi Koreya-ABŞ ittifaqının güclü iradəsini nümayiş etdirən və birgə əməliyyatlar üçün imkanları dəqiqləşdirmək məqsədi daşıyan təlimlər 4 gün davam edəcək.

Təlimlər Şimali Koreyanın nüvə silahı və sualtı qurğudan ballistik raket buraxılışı sınağı kimi təxribatçı addımlar ehtimalı ilə bağlı davam edən spekulyasiyalar fonunda Seul və Vaşinqtonun təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək istiqamətində növbəti addımıdır.

## Koreya Yapon dənizi istiqamətində yaxın mənzilli raket buraxıb



Koreya Xalq Demokratik Respublikası Yapon dənizi istiqamətində yaxın mənzilli raket buraxıb.

Bu barədə "Yonhap" agentliyi Cənubi Koreya hərbçilərinə istinadla məlumat yayıb. Raketin Şimali Pyonqan vilayətindən yerli vaxtla səhər saat 6:53-də buraxıldığı və təxminən 600 kilometr uçduğu bildirilir. Cənubi Koreya və ABŞ kəşfiyyat qurumları KXDR-in raket buraxılışının detallarının öyrənilməsinə çalışır.

Qeyd edək ki, KXDR ilin əvvəlindən bəri bir neçə dəfə ballistik və hipersəsli raket buraxılışı həyata keçirib. İndiki raket buraxılışı isə ABŞ-ın vitse-prezidenti Kamala Harrisin Seula planlaşdırılan səfəri, habelə Cənubi Koreya və ABŞ hərbçilərinin Şərq dənizində növbəti hərbi təlimlərin ərəfəsinə təsadüf edir.

**AZƏRTAC-ın materialları əsasında**

# Gənclər zabit və əsgərlərlə görüşüblər





*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Əlahiddə Ümumqoşun Ordu və "Gənc Vətənpərvərlər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə hərbi hissələrin birində gənclərin zabit və əsgərlərimizlə görüşü keçirilib.*

Muxtar respublikanın Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, tədbir iştirakçıları əvvəlcə Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Hərbi hissənin zabiti, polkovnik Fariz Sərxanov dövlətimiz tərəfindən ordu quruculuğuna göstərilən diqqət və qayğıdan bəhs edib, hərb sənətinə yiyələnməyin mənəvi-psixoloji üstünlükləri barədə fikirlər səsləndirib. Nazirliyin şöbə müdiri İlahə Haqverdiyeva gənclərin iştirakı ilə şəhid ailələrinin ziyarət olunması, Vətən müharibəsi iştirakçıları və hazırda xidməti fəaliyyətini davam etdirən hərbçilərlə keçirilən görüşlərin ənənəyə çevrildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, dövlət-xalq-ordu birliyinin təcəssümünə çevrilən Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında gənc nəslin vətənpərvər ruhda böyüməsinə, azərbaycançılıq ideologiyası və milli dövlətçilik prinsiplərinə sadiq vətəndaş kimi formalaşmasına xüsusi önəm verilir. Digər çıxış edənlər gəncləri muxtar respublikada Azərbaycan Ordusunun ilk nizami hissə və bölmələrinin yaradılması tarixi və həmin dövrdən bu yana keçən 30 il ərzində baş verən dəyişikliklər, qazanılan uğurlar barədə məlumatlandırıb.



Görüşün proqramına uyğun olaraq iştirakçıların hərbi hissə ilə tanışlığı, eləcə də qrup təchizatı, silah və cihazların nümayişi təşkil edilib.

Ənənəvi görüşlərdən fərqli olaraq bu dəfə gənclər üçün daha fərqli təqdimat olub. Belə ki, hərbçilərimiz tərəfindən icra olunan əlbəyaxa döyüş, maneələr zolağının dəf edilməsi, qrupun pusqu və basqın tapşırıqlarını yerinə yetirməsi ilə bağlı icra etdikləri təlim-tapşırıqlar gənclər tərəfindən böyük maraqla qarşılanıb. Gənclər tədbirin sonunda hərbçilərlə birlikdə nahar ediblər.

## Erməni hərbi birləşmələri tərəfindən basdırılmış minalar zərərsizləşdirilib

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri azad edilmiş ərazilərimizin və təminat yollarının minalardan təmizlənməsi istiqamətində fəaliyyətlərini davam etdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aparılan minatəmizləmə fəaliyyəti nəticəsində sentyabrın 24-ü və 25-i tarixlərində Kəlbəcər rayonunun Alagöllər ərazisində və digər istiqamətlərdə 370 ədəd piyada əleyhinə PMN-3 və 9 ədəd tank əleyhinə TM-62 minası aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azad edilmiş ərazilərimizdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.



### *Hərbi texnikalar, silahlar*

# "Ice Breaker" raketi

*İsrail "Ice Breaker" (Buz qıran) adlı yeni beşinci nəsil uzaqmənzilli, yüksəkdəqiqlikli raketini təqdim edib. Raket İsrailin "Rafael" şirkəti tərəfindən istehsal edilib. Qurudan, dənizdən və havadan zərbələr endirməklə hədəfləri məhv etmək üçün nəzərdə tutulub.*

Raket qırıcı təyyarələr, yüngül hərbi aviasiya vasitələri və helikopterlər kimi bir sıra platformalara uyğun gəlir. 4 metrlik, 349 kiloqramlıq raket sürətlə uçan 113 kiloqramlıq, yüksək partlayıcı gücə malik və partlayış zamanı hissələrə parçalanan döyüş başlığı daşıyır.

Yeni raket 300 km-ə qədər məsafədə quru və dəniz hədəflərinin effektiv və dəqiq vurulmasını təmin edir. "Ice Breaker" raketi istənilən hava şəraitində istifadə edilə bilər. Hətta çətin relyefli ərazilərdə belə yüksək sürətlə aşağı hündürlükdə uça bilir. Raket əvvəlcədən müəyyən edilmiş marşrutlar üzrə uçur və real vaxt rejimində taktiki yeniləmələr sayəsində kursunu tənzimləyə bilir.




"Ice Breaker" 300 kilometr uzaqlıqdakı stasionar və hərəkət edən hədəfləri vurmağa imkan verən ən müasir axtarış qurğusuna malikdir.

Raket radioelektron mübarizə vasitələrinin təsirinə qarşı davamlıdır və GPS-in işləmədiyi mühitlərdə effektivdir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Peşəkar boksçumuz Seymur İsayev UBO-nun dünya kəmərini qazanan ilk azərbaycanlı olub



Şağan Olimpiya İdman Kompleksində peşəkar boks gecəsi keçirilib.

Gecədə 14 boksçu müxtəlif çəki dərəcələrində öz güclərini sınayıb.

Gecənin əsas döyüşü Seymur İsayev və pakistanlı Muhammad Bilal arasında UBO-nun (Universal Boxing Organization) yüngül çəki üzrə dünya kəməri uğrunda keçirilib. Boksçumuz rəqibinə texniki nokautla qalib gəlib. Rəqib 6-cı raunda çıxmaqdan imtina edib və S.İsayev qələbə qazanaraq UBO-nun dünya kəmərini qazanan ilk azərbaycanlı olub.

## UEFA Millətlər Liqası: Azərbaycan millisi Qazaxıstan yığmasını məğlub edib



Futbol üzrə Azərbaycan milli komandası UEFA Millətlər Liqasının qrup mərhələsində sonuncu oyununda qələbə qazanıb.

Millimiz C Liqasının üçüncü qrupunun altıncı turunda Qazaxıstan yığmasını qəbul edib. "Dalğa Arena"da oynanılan qarşılaşmada millimiz 3:0 hesablı qələbə qazanıb. On üç xalı olan Qazaxıstan millisi B Liqası və pley-offa vəsiqəni təmin edib. Azərbaycan seçməsi isə 10 xalla 2-ci pillədə qərarlaşıb.

## Karateçilərimiz Karate1 Seriya A turnirini 3 medalla başa vurublar



Karateçilərimiz Türkiyənin Kocaeli şəhərində Karate1 Seriya A turnirini 3 medalla başa vurublar.

Mükafatların biri qızıl, ikisi isə bürüncdür.

Millimizin üzvlərindən Fidan Teymurova (50 kq, "Qara Qaplan" klubu) yarışın qalibi olub. Belçika, Misir, Türkiyə, İran və Əlcəzair karateçilərinə qalib gələn F.Teymurova həlledici görüşdə Xorvtiya təmsilçisini məğlub edərək parlaq qələbə qazanıb.

Mədinə Sadiqova (55 kq) və Nuran Rzazadə (67 kq, hər ikisi "Qara Qaplan") isə Dünya Karate Federasiyasının (WKF) mötəbər turnirini üçüncü pillədə başa vurublar.

## Stolüstü tennisçilərimiz beynəlxalq turnirdə 5 mükafat qazanıblar



Gürcüstanın paytaxtı Tbilisi şəhərində "Wtt Youth Contender Tbilisi" turnirinə yekun vurulub. Yarışın son günündə seçmə komandanın iki üzvü mükafatlar uğrunda mübarizə aparıb.

11 yaşadək tennisçilərin turnirində etimadı layiqincə doğruldan Yağmur Məmmədli bütün rəqiblərini üstələyərək yarışın baş mükafatını qazanıb.

15 yaşadək idmançıların turnirindəki tennisçimiz Mərziyyə Nurmətova isə yalnız gərgin mübarizə ilə yadda qalan final görüşündə iranlı rəqibinə 2:3 hesabı ilə uduzaraq 2-ci yerlə kifayətlənib. Yarışın əvvəlki günlərində Aylin Əsgərova, Adil Əhmədzadə və Onur Quluzadə 3-cü yeri tutub.

Beləliklə, yeniyetmələrdən ibarət Azərbaycan seçmə komandası 18 ölkə idmançılarının qatıldığı turniri 5 mükafatla başa vurub.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Məmmədov Səbuhi Qurban oğluna məxsus MN № 0033630 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Heydərov Camal Rəşid oğluna məxsus AD № 0047699 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Hüsniyyə İDRİSOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 873
Nüsxə 4660